# Tərtər: Təhsilin vəziyyəti ürəkaçandır

"Təhsil millətin gələcəyidir" deyən ulu öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən respublika Prezidenti cənab İlham Əliyev milli təhsilin dünya standartları səviyyəsinə çatdırılması istiqamətində apardığı məqsədyönlü siyasət öz müsbət nəticəsini verir. Azərbaycanda son illərdə bu istiqamətdə saysız-hesabsız irimiqyaslı infrastruktur layihələri həyata keçirilir. Müəllimlərin maddi rifah halının yaxşılaşdırılması istiqamətində bir sıra mühüm qərarlar qəbul olunmuşdur. Nəticədə təhsilin keyfiyyəti ilbəil yüksəlir.

30 ildir ki, mənfur düşmənlə üz-üzə məğrur dayanan qəhrəman Tərtər şəhərində İsmayıl Məmmədov adına 2 saylı məktəb-liseyə yollandıq. Bizi **məktəbin direktoru Gülnarə Əkbərova** səmimiyyətlə qarşıladı. Məktəbin həyətində xüsusi təmizlik, səliqə-sahman, ərazidə əkilmiş gül-çiçək kolları ilk baxışdan diqqəti cəlb edir. Yeni dərs ilinin başlanması ilə əlaqədar şagird və müəllimlər şəhid İsmayıl Məmmədovun məktəbin həyətindəki büstü önünə gül-çiçək dəstələri qoyaraq onun əziz xatirəsini ehtiramla yad etmişlər. Məktəbin direktoru 1992-ci ildən pedaqoji sahədə çalışan, 2007-ci ildən isə qeyd olunan təhsil müəssisəsinə rəhbərlik edən Gülnarə müəllim ilə söhbət zamanı qeyd etdi ki, ölkə Prezidenti cənab İlham Əliyevin təhsilə və təhsil işçilərinə göstərdiyi misilsiz qayğıdan ruhlanan kollektiv üzvləri daha məsuliyyətlə çalışaraq ildənilə uğurlarının sayını artırırlar. Bununla yanaşı, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan elminin, təhsilinin və mədəniyyətinin inkişaf etdirilməsi istiqamətində misilsiz xidmətlərini xüsusilə vurğulamaq lazımdır. Mehriban xanım Əliyevanın "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində respublikada yüzlərlə köhnə məktəb binalarının yerində yeni, müasir tələblərə cavab verən təhsil müəssisələri inşa olunmuş və ya əsaslı təmir olunaraq müəllim və şagirdlərin istifadəsinə verilmişdir ki, bu da milli təhsilin keyfiyyətinə birbaşa müsbət təsir göstərir. Hazırda 611 nəfər şagirdin təlim-tərbiyəsi ilə 55 müəllim məşğul olur. Müəllimlərin əksəriyyəti diaqnostik qiymətləndirmədən keçərək yüksək nəticə əldə etmişlər. Məktəb İKT sistemi ilə təhciz olunmuşdur. Təhsil müəssisəsində informatika kabineti, kimya, fizika laboratoriyaları, ictimai fənlər kabineti, idman və akt zalları fəaliyyət göstərir. Cari ildə məktəbi 44 nəfər bitirmiş, onlardan 39 məzun qəbul üçün sə-



nəd təqdim etmiş, 31 nəfəri respublikanın nüfuzlu ali təhsil ocaqlarına, 1 nəfər isə orta ixtisas məktəbinə qəbul olmuşdur. Doğrusu, cəbhə bölgəsinə çox yaxın məsafədə yerləşən bir rayonda belə bir yüksək nəticənin əldə olunması insanda yalnız qürur hissi oyadır. Pedaqoji kollektivə isə yalnız təşəkkür etmək düşür. Tələbə adını qazananlardan Oktay Səfərov 631 balla BDU-nun hüquq fakültəsinə, Rizvan Zeynalov isə yüksək balla ADA Universitetinə qəbul olunmuşlar. Məzunlardan 5 nəfəri 500-dən yuxarı bal toplamışdır. Məktəbdə 3 məktəbəqədər hazırlıq qrupu, 1 texniki-riyaziyyat -iqtisadiyyat təmayülü üzrə sinif açılmışdır.

G.Əkbərova qeyd etdi ki, məktəbin iki nəfər müəllimi - fizika müəllimi Bağırov Bakir Bağır oğlu və ibtidai sinif müəllimi Abbasova Mehriban Qədir qızı Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Tərəqqi" medalına, ingilis dili müəllimi Rüstəmova Xatın Həbib qızı isə "Əməkdar Müəllim" adına layiq görülmüşlər. Biologiya müəllimi Həsənova Sona Səfiyar qızı isə Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Fəxri Fərmanı" ilə təltif olunmuşdur. Bəylərzadə Mehman Rauf oğlu, Quluzadə Ramin Bayram oğlu IX sinfi bitirərək Naxçıvanski adına Hərbi Liseyə, Ələkbərli Oğuzxan Elxan oğlu Bakı Hərbi Tibb Məktəbinə daxil olmuşlar.

DİM-in statistik məlumatında Tərtər şəhər İ.Məmmədov adına 2 saylı məktəb-lisey son beş ildə ali məktəblərə tələbə qəbulunun yüksək faizinə görə üç dəfə rayonun ən yaxşı məktəbi kimi qeyd olunmuşdur .

Son illərdə 10 nəfər IX sinif şagirdi, 4 nəfər XI sinif şagirdi "Fərqlənmə attestatı"na layiq görülmüşdür.

Təhsil müəssisəsinin şagirdləri olimpiada və digər bilik yarışmalarında iştirak edərək nailiyyətlər əldə etmişlər. Məktəbin bir nəfər şagirdi Kərimli Nuranə Elçin qızı üç dəfə tarix fənni üzrə fənn olimpiadasının respublika turunun qalibi olmuş, məktəbi "Qızıl medalla" bitirmişdir.

Cabbarova Aytən Müslüm qızı Azərbaycan Respublikasnın Prezidenti Yanında Bilik Fondunun təşkilatçılığı ilə keçirilən "Fənlərin dostluğu" olimpiadasında IV yerin qalibi olmuş və "Fəxri Fərman"la təltif olunmuşdur.

Məktəbin şagirdləri Sadıqlı Elgün Zabil oğlu, Kərimli İsmayıl Aslan oğlu, Sadıqlı Elgiz Zabil oğlu, Əlizadə Əfsanə Zaur qızı Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar keçirilən rayon tədbirinin hazırlanmasında fəal iştirakına görə Tərtər Rayon İcra Hakimiyyəti başçısının sərəncamı ilə "Fəxri Fərmanla" təltif olunmuşdur.

Müsahibənin sonunda məktəbin direktoru Gülnarə Əkbərova bildirdi ki, əldə olunan uğurlarla heç də kifayətlənmək olmaz. Növbəti illərdə daha yüksək nəticələr əldə olunması üçün əzmlə çalışmaq lazımdır.

**Vəli VƏLİYEV,**
**"Respublika".**